# Əkrəm Rəhimlinin anım günü



İyunun 7-də görkəmli şərqşünas alim Əkrəm Rəhimlinin (Bijenin) anım günü keçirildi. "Mişov dağı" Kültür Dərnəyi və Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin ortaq hazırladığı tədbir Gəncliyə Yardım Fondunun geniş salonunda baş tutdu.

Əvvəlcə AMEA-ın Şərqşünaslıq İnstitutunun şöbə müdiri Səməd Bayramzadə görkəmli alimin və azadlıq fədaisinin həyatı, keşməkeşli ömür yolu haqqında söz açdı, onun "SSRİ-Türkiyə iqtisadi əlaqələri", "Türkiyənin xarici ticarət siyasəti", "Güney Azərbaycanda milli-demokrat hərəkat", "Mübarizə burulğanında keçən ömür. Seyid Cəfər Pişəvəri" və s. kitabları haqqında geniş məlumat verdi. Bildirdi ki, Əkrəm Rəhimli yüzlərlə elmi məqalənin, onlarla kitabın müəllifidir.

"Mişov dağı" Kültür Dərnəyinin rəhbəri Akşin Ağkəmərlinin və Mirvarid Dilbazi Poeziya Məclisi İctimai Birliyinin sədri Güllü Eldar Tomarlının aparıcılığı ilə keçirilən tədbirdə Folklor İnstitutunun əməkdaşı Əli Şamil, "Kanal-13" televiziya kanalının aparıcısı Ülfət Muradlı, əməkdar jurnalist Rəhim Hüseynzadə, tədqiqatçı Yədulla Kənanı, şair Rafael Tağızadə, Azərbaycan Radiosunun Cənubi Azərbaycan şöbəsinin müdiri Mehman Şəmistanoğlu və başqaları çıxış edərək görkəmli alimin uşaq yaşlarından başlayaraq üzləşdiyi çətinliklərdən, azadlıq uğrunda mücadiləsindən danışdılar. Bildirdilər ki, İkinci Dünya Müharibəsi dövründə Cənubi Azərbaycanda yüksələn azadlıq mücadiləsinin son şahidlərindən olan görkəmli alim ömrünü doğma xalqının tarixinin araşdırılmasına həsr etmişdir. Onunla ünsiyyətdə olanların bildirdiyinə görə, mücahidlərin xatirəsini öz əsərlərində əks etdirən alim eyni zamanda incə qəlbli şair idi. Əslən Cənubi Azərbaycandan olan Əkrəm Rəhimli vətən həsrətini, özünün və həmyerlilərinin üzləşdiyi çətinlikləri bədii misralara çevirirdi. O, Vətən həsrətli şeirləri və bayatıları xoşlayırdı. Çapa hazırladığı "Parçalanmış millətin harayı (həsrət şeirləri və bayatılar)" kitabı vüsal həsrətilə dünyadan köçmüş insanların xatirəsinə həsr olunmuşdu. Bir vaxtlar özü də bu vüsal həsrətilə yaşayırdı. Onun həmvətəni olan Mədinə Gülgünün qələmə aldığı vüsal həsrətilə:

*Vüsal olsa nə dərdim*
*Quşlarla bəhs edərdim.*
*Pay-piyada gedərdim*
*Bakıdan Təbrizəcən.*

Alimin qızlarının, nəvələrinin iştirak etdiyi məclisdə həyat yoldaşı Fatma xanım Əkrəm müəllimin insani keyfiyyətlərindən, ailəcanlılığından, övladlarına qayğısından və eyni zamanda bu qayğıların içərisində vətən, yurd sevgisini unutmamasından söhbət açdı, məclisin təşkilatçılarına, iştirakçılara təşəkkürünü bildirdi.

*Atababa İSMAYILOĞLU*

Ədəbiyyat qəzeti.- 2022- ci il.- 11 iyun.- S. 12.